# Həm şərəfli, həm kədərli ömür yolu

**Qarabağ müharibəsi başlayanda müqəddəs Vətən torpağı uğrunda canından-qanından keçən, əbədiyyət yolçuluğunu seçən oğullardan biri də Azər Nazim oğlu Yusifli oldu.**

Azər 1994-cü il martın 28-də Ağstafa rayonunun Böyük Kəsik kəndində ziyalı ailəsində anadan olub. 2000-2011-ci illərdə həmin kəndin orta məktəbində təhsil alıb. Hərbçi olmaq, torpaqlarımızın azad olunmasında iştirak etmək, Azərin uşaqlıqdan arzusu idi. 2012-ci ilin aprel ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ağstafa rayon şöbəsi tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılmış, 2013-cü ilin oktyabr ayına qədər Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının Cəlilabad rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir.

Azər taleyini də hərbi sahəyə bağlamışdı. 2013- cü ildən Sərhəd Qoşunlarının "N" saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi. Dövlət Sərhəd Xidməti tərəfindən Azər Yusifli "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi" yubileyi medalı ilə, eyni zamanda, "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medal ilə təltif edilmişdir.

2020-ci il sentyabrın 27-də İkinci Qarabağ müharibəsi başlayanda Azər də qeyrətli oğullarımızla birlikdə torpaqlarımızın bütövlüyü uğrunda mübarizəyə qalxdı. Azəri yaxından tanıyan



yoldaşlarının dediklərindən aydın olur ki, o, torpağa, Vətənə bağlı bir oğul idi. Azərin canında, qanında bir qorxmazlıq, igidlik, mərdlik vardı. Döyüşlərdə həm də kəşfiyyatçı kimi iştirak edirdi. Eyni zamanda, o, döyüşlərdə yaralanan igidlərimizi arxa cəbhəyə çıxardır və lazımi köməkliklər göstərirdi.

Dövlət Sərhəd Xidmətinin Çevik Hərəkət Dəstəsinin baş giziri olan Azər Yusifli Cəbrayıl, Füzuli, Hadrut, Qubadlı və Zəngilanın azad edilməsində boyük qəhrəmanlıq göstərmişdir. Cəbrayıl rayonunun Araz boyu yaşayış məntəqələri olan Mahmudlu, Soltanlı, Əmirvarlı, Göyərçin, Veysəlli, Keyxalı, Maşanlı və Hasanlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Habelə, Xudafərin körpüsünü işğaldan azad edən igidlərdən biri olmuşdur.

O, düşmənin 30-a yaxın canlı qüvvəsini və 4 zirehli texnikasını sıradan cıxarmışdır. Cəbrayıl rayonunun işğaldan azad olunmasından sonra Zəngilan şəhəri uğrunda doyüşlər başladı. Gecə saatlarında şəhər işğaldan azad olundu. Saat 04.00 radələrində baş gizir Azər Yusifli tərəfindən Zəngilan şəhərinə Azərbaycan bayrağı sancıldı. Zəngilan şəhəri istiqamətində gedən döyüşlər çox ağır idi. Neçə-neçə ər oğullarmız qana boyansa da əməliyyat uğurla nəticələndi. Lakin Azər bu döyüşdə ağır yaralandı, onu xılas etmək mümkün olmadı. İgid döyüşçü qəhrəmancasına şəhid oldu.

İçimizdə dərin təəssüf və pərişanlıq hissinin müqabilində bir təskinlik tapırıq ki, Azərin qısa ömür yolu şəhidlik adı ilə ədədiləşərək tarixin yaddaşına həkk olundu. O, daim bizimlədir, bizi tərk edən Azərin cismidir.

Azərbaycanın ərazı bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə, igidlik, mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 9 dekabr 2020-ci il tarixli Sərəncamı ilə Azər Yusifliyə "Vətən Müharibəsi Qəhrəmanı" adı verildı.

Eyni zamanda, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.

Təhsil aldığı məktəb də Azərin adını daşıyır. Sən daim qəlbimizdəsən, unudulmaz Vətən oğlu...

**Tərlan Qasımova**

**İki sahil.- 31 dekabr.- 2021- ci i.- S. 29.**